# 434295 döyüş sursatı, 61 artilleriya silahı, 26 zirehli texnika...

## Antiterror tədbirləri qeyri-qanuni erməni silahlı dəstələrinin tam məhvi ilə nəticələndi

44 günlük İkinci Qarabağ müharibəsində XXI əsrin "smart savaşı"nı həyata keçirən Azərbaycan Ordusu bir daha gücünü-qüdrətini dünyaya nümayiş etdirdi. Bu tarixi Zəfərdə Ermənistanın öz silahlı birləşmələri haqqında yaratdığı miflər məhv oldu və "keçilməz" adlandırdığı sədlər darmadağın edildi.

Bu savaşda düşmənin böyük canlı qüvvəsi, eləcə də hərbi texnikası sıradan çıxarıldı. Bununla yanaşı, Azərbaycan Ordusu tərəfindən düşmənin xeyli sayda hərbi texnikasını (2994285 ədəd müxtəlif çaplı döyüş sursatları, 101 tank, 63 PDM, 1 PDM KŞ, 8 BRDM-2, 169 top və haubitsa, 64 minaatan, 97 TƏİRK, 358 tank əleyhinə idarəolunan raketlər, 635 qumbaraatan, 3615 atıcı silah, 11 Şilka ZQ-23-4, 21 9M331 TOR kompleksi İZR-i (raketi), 138 "İqla-S", "İqla", "İqla-1" məmulatı, 6 "Strela-2" məmulatı, 55 "İqla-S", "İqla", "İqla-1", "Strela-2" buraxıcı mexanizmi, 120 minik avtomobili, 512 yük avtomobili, 10 traktor) qənimət kimi götürüldü.

Bundan başqa, düşmənin 7 komanda məntəqəsi, 11 sursat anbarı dağıdıldı.

Ermənistan ordusundan qənimət kimi götürülmüş texnikaların bir hissəsi 2020-ci il dekabrın 10-da Bakıda hərbi paradda nümayiş etdirildi və bu gün onlar 2021-ci ilin aprelində Bakıda açılmış Hərbi Qənimətlər Parkında sərgilənir.




Bu gün isə onların sırası bir qədər də genişlənib. Belə ki, sentyabrın 19-da Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində həm separatçıların xeyli sayda canlı qüvvəsi məhv edilib, həm də qoyub qaçdıqları hərbi texnikalar qənimət kimi götürülüb.

Müdafiə Nazirliyi sentyabrın 27-dək Qarabağ bölgəsində müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə məlumat yayıb. Bildirilir ki, ordumuz tərəfindən 434295 döyüş sursatı, 1132 atıcı silah və qumbaraatan, 61 artilleriya silah, 26 zirehli texnika, 235 HHM vasitələri, 2732 təchizat və ləvazimatlar, 231 optik və digər cihazlar, 125 avtomobil texnikası, 21 qoşqu müsadirə edilib.

Yəqin ki, bu, hələ son deyil. Amma bu göstəricilər bir daha onu deməyə əsas verir ki, erməni silahlı birləşmələri məhv edilib.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 28 sentyabr.- S.13.